AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"____" ________________2014-cü il                    № ______________

# ƏMR № 324

**Bakı şəhəri** **30 sentyabr 2014-cü il**

**"Dünya Diabet Gününə həsr olunmuş maarifləndirici aksiyanın keçirilməsi barədə "**

Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər) 3.2.3.4-cü bəndinin icrası məqsədi ilə

## ƏMR EDİRƏM

1. Qeyri-infeksion xəstəliklərin risk faktoru olan qeyri-sağlam qidalanma tərzi ilə mübarizə sahəsində "14 noyabr - Dünya Diabet Günü"nə həsr olunmuş "Sağlam qidalanma səhər yeməyindən başlayır" şüarı altında maarifləndirici aksiya keçirilsin.
2. Səhiyyə Nazirliyinin 12 yanvar 2011-ci il tarixli 9 nömrəli əmri ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 4.1-ci bəndinə uyğun olaraq aksiyada paylanılmaq üçün şəkərli diabetin profilaktikasına dair müvafiq maarifləndirici materiallar hazırlansın.
3. Aksiyanın təşkili və keçirilməsinə nəzarət Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın.
4. Əmrin 2-ci bəndində göstərilən maarifləndirici materialların hazırlanmasının təşkili Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Aysel Hacıyevaya tapşırılsın.
5. Baş mühasib Abuzər Məmmədova qeyd olunan tədbirlərin həyata keçirilməsi üçün xərclərin smetasının tərtib edilməsi və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.
6. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

Rauf Məmmədov
Şöbələr Abdullayev
nəzarətə
26.09.2014

A. Hacıyeva

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azadılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər) 3.2.3.4-cü bəndinə əsasən "Qeyri-infeksion xəstəliklərin risk faktorları olan tütünçəkmə, piylənmə, yüksək qan təzyiqi, qeyri-sağlam qidalanma tərzi, fiziki aktivliyin olmaması ilə mübarizə və bu sahədə maarifləndirmə işlərinin aparılması" nəzərdə tutulur.

Həmin bəndin icrasını təmin etmək üçün səhiyyə təşkilində qərar qəbul edən insanların Şəkərli Diabet xəstəyinə diqqətini cəlb etmək məqsədi ilə 14 noyabr 2014-cü il tarixdə İSİM tərəfindən Dünya Diabet Gününə həsr olunmuş "Sağlam həyat tərzi, sağlam qidalanma, fiziki aktivlik bunlar şəkərli diabetin profilaktikasıdır" şüarı altında maarifləndirmə aksiyası keçirmək məqsədəuyğun hesab olunur.

İştirakçılar üçün aksiyada təşkil olunacaq səhər yeməyindən əvvəl və sonra onların qanlarında şəkərin miqdarının yoxlanılması və Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 222 nömrəli Qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın 4.1-ci bəndinə uyğun olaraq Şəkərli diabetin profilaktikasına dair çap ediləcək populyar ədəbiyyatın, bukletlərin və vərəqələrin paylanılması planlaşdırılır.

Aksiyanın keçirilməsi ilə bağlı iştirakçılar və xidmətlər barədə cədvəl əlavə edilir.

**Layihələrin əlaqələndirilməsi**
**şöbəsinin müdiri**

**Səbinə Babazadə**
26.09.2014

| Cədvəl | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə<br>Aysel Haciyeva |
| texniki işçı | Rüfət Rəhimov<br>Elnarə Nuriyeva<br>Elnarə Əliyeva<br>Gülnarə Tağıyeva<br>Səadət Hənifəyeva |
| dizayner | Ramiz Qəmbərov |
| fotoxidmət | 1 nəfər |
| **Aksiyada istifadə olunacaq çap materialları :** | |
| Buklet- Fiziki aktivlik sağlamlığın qorunmasının ən mühüm şərtidir | 3000 ədəd |
| Buklet --çörək vahidi | 3000 ədəd |
| Flayer - faydalı məsləhət (A4 format 3 bükülən) | 3000 ədəd |
| Qanda şəkərin miqdarını əks etdirən vərəqə | 150 ədəd |
| Plakat | 50 ədəd (format A2) |
| Dəvətnamə | 150 ədəd |
| Bloknot | 150 ədəd |
| Qələm (ruçka) | 150 ədəd |
| Qovluq (çanta) | 150 ədəd |
| Roll- up | 2 ədəd (85* 200sm) |
| Bayraq loqo ilə | 200ədəd |
| Şar | 200ədəd |
| Mayka | 35 ədəd |
| Banner | 1 ədəd (2m*3m) |
| Press-reliz | ədəd |
| Furşet | 150 nəfər |
| Həvəsləndirici hədiyyə | 50 nəfər |
| Dəftərxana ləvazimatları | |
| Administrativ xərclər | |
| Nəqliyyət xərcləri | |